**Şahbaz Muradov**
**i.e.d.,prof. AMEA-nın müxbir üzvü**
**AMEA İqtisadiyyat İnstitutu**
**"Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin müdiri.**
**Rövşən Muradov**
**i.e.d.,prof.**
**UOT:31;33;338.;JEL:A11;A13;A19;F63;I31;I38.**

# İnsan kapitalı və onun bəzi elmi-nəzəri və konseptual əsasları haqqında

***Xülasə***

*Məqalədə insan kapitalı ilə bağlı iqtisad elminin klassiklərinin, habelə dünyanın ayrı-ayrı görkəmli iqtisadçı alimlərinin əsərlərindəki nəzəri fikirlər, baxış və yanaşmalar təhlil edilib ümumiləşdirilmiş və buradan irəli gələn bəzi elmi və elmi mütaliə əhəmiyyəti olan nəticələr çıxarılmışdır.*

***Açar sözlər:*** *insan potensialı, insan kapitalı, intellektual kapital, insan ölçüsü, təhsil səviyyəsi, fərdi sağlamlıq, ictimai sağlamlıq, iş qüvvəsi, insan inkişafı indeksi, rifah, yaşayış keyfiyyəti, həyat tərzi, yoxsulluq, sağlamlıq potensialı.*

## Giriş

**İnsanlar hər bir cəmiyyətin başlıca milli sərvətini, sosial-iqtisadi tərəqqinin son məqsədi isə insanların inkişafını və onların tələbatının ödənilməsini təşkil edir.** Bu səbəbdəndir ki, insan və onun məhsuldar qabiliyyətinin tədqiq edilib öyrənilməsi daim iqtisad elminin əsas vəzifələrindən biri kimi diqqəti cəlb etmişdir. Ancaq bununla belə XIX əsrdə baş vermiş sənaye çevrilişi ilə əlaqədar olaraq istehsalın maddi-texniki bazasının inkişafı insan inkişafı və onun məhsuldarlıq qabiliyyətinin önünə keçmiş və iqtisadi artımın təmin edilməsində fiziki kapitalın üstün olması xülyasını yaratmışdı. Elə bunun nəticəsidir ki uzun illər boyu insanın məhsuldar qabiliyyətinə **istehsalın ikinci dərəcəli amili kimi** yanaşılmış və bu baxımdan **qiymətləndirilmişdir.** Vəzifə sadəcə surətdə yalnız ondan ibarət olmuşdur ki, əmək, əsas və dövriyyə kapitalı uğurla birləşdirilə bilsin. Ancaq keçən əsrin axırlarından başlayaraq müasir cəmiyyətin dinamik inkişafı və onun texnoloji bazasının sürətlə yeniləşməsi ictimai təkrar istehsal prosesində insanın rol və yerinin dəyişməsinə gətirib çıxarmışdır. Bu isə obyektiv surətdə bir çox elm sahələrində, xüsusilə də sosial və ictimai elmlər sahəsində məşğul olan mütəxəssislərin diqqətini cəmiyyətin inkişafında insanların rol və yerinin, onların məhsuldarlıq qabiliyyətlərinin, intellektual imkanlarının, motiv və tələbatlarının öyrənilməsi ilə bağlı tədqiqatların aparılmasına yönəltmişdir. Buna görə də keçən əsrin axırıncı onilliyi iqtisadi inkişaf proseslərində **insan amilinə** diqqətin xeyli artması ilə yadda qalmışdır. Bu amil BMT ailəsinə daxil olan beynəlxalq təşkilatların, o cümlədən Dünya Bankının proqram və **analitik** sənədlərində əks olunmuş, BMT-nin İnkişaf Proqramı isə (BMTİP) 1990-cı ildən başlayaraq İnsan inkişafı haqqında Ümumdünya miqyasında xüsusi məruzələr dərc etdirməyə başlamışdır. BMT tərəfindən təklif olunan **metodika və insan inkişafının göstəriciləri** həm ayrıca götürülmüş bir ölkədə və həm də qrup ölkələrdə sosial tərəqqinin müqayisəli təhlilini aparmağa və bu baxımdan həmin ölkələrin iqtisadi və sosial siyasətlərinin nəzərdən keçirilməsinə imkan verir. Bütün bunlar isə onu deməyə əsas verir ki, **inkişaf yalnız maddi dəyərlərin və xidmətlərin artımı kimi nəzərdən keçirilə bilməz. Burada insanın rol və yeri də mütləq nəzərə alınmalıdır.** Bu isə öz növbəsində iqtisad elmi sahəsindəki bütün qüvvələrin insan problemi, ilk növbədə isə **insan potensialı və insan kapitalı** ilə bağlı tədqiqatların aparılması sahəsində birləşdirilməsini və təmərküzləşdirilməsini tələb edir. Bu da həqiqətdir ki, müasir insan kapitalı nəzəriyyəsi keçən əsrin ikinci yarısında mövcud olmuş müxtəlif elmi baxışların əsasında pərakəndə halda

formalaşıb inkişaf edərək, neoklassik istiqamətdə getmişdir. Sonrakı onilliklər ərzində isə fərdlərin davranışını optimallaşdıran neoklassik baza prinsipi insan fəaliyyətinin müxtəlif bazardankənar dairələrinə yayılmışdır. **İqtisadi təhlil anlayış və metodları** isə **təhsil, səhiyyə, əhali miqrasiyası, ailə, kəbin, dini ayrıseçkilik** və sair bu kimi hadisə və təsisatların öyrənilməsində tətbiq edilməyə başlamışdır. Bununla belə aparılan tədqiqatların nəticələri göstərir ki, indiyədək **insan kapitalı** anlayışının izahı barədə alimlər arasında fikir birliyi yoxdur. Ona görə də məqalədə qarşıya qoyulan məqsəd və vəzifəyə uyğun olaraq ilk növbədə burada iqtisadi kateqoriya kimi **«insan kapitalı»** anlayışının mahiyyət və məzmununu aydınlaşdırmağa çalışacağıq.

**İnsan kapitalının elmi-nəzəri və konseptual əsasları, nəzəri təhlil və qiymətləndirmə**

Məlum olduğu kimi, insan kapitalı nəzəriyyəsi iyirminci əsrin ikinci yarısında meydana çıxsa da maddi (əşya) təbiəti olmayan kapital ideyası dünya iqtisadi ədəbiyyatında ilk dəfə olaraq hələ iqtisad elminin klassiklərinin - V.Petti, A.Smit, İ.Sey və D.Rikardonun əsərlərində öz əksini tapmışdır. İnsanların "**hərəkətdə olan canlı qüvvəsinin"** xalqların əsas sərvəti olması fikrini isə ilk dəfə irəli sürənlərdən biri V.Petti olmuşdur. Buna görə hələ vaxtı ilə A.Smit demişdir ki: "Dövlətin əzəmətli və şöhrətli olması da onun xalqının sayına, məharətinə və əməksevərliklərinə əsaslanır, onların üzərinə düşür" (14. səh. 17). V.Petti də məhz sağlam işçiləri faydalı hesab edirdi. V.Petti **əvvəla,** ilk dəfə olaraq insanların peşəkarlıq keyfiyyətinin məcmusunu gəlir gətirən insan kapitalı milli ideyasının əsasını qoyan olmuş; **ikincisi, o**, insan kapitalına investisiya qoyuluşunun zəruriliyi və səmərəliliyi məsələsi haqqında fikir irəli sürmüş və həmin məsələni gündəmə gətirmişdir; **üçüncüsü,** insan kapitalının təkrar istehsalının həyata keçirilməsində dövlətin sosial-iqtisadi institutu olaraq aparıcı rol oynamasını göstərmək təşəbbüsünə də cəhd edən o, olmuşdur. A.Smit isə əsas kapitalın tərkibinə təkcə əmək alətlərini və tikintiləri deyil, həm də **"insan kapitalını"** daxil etmişdir. O, **vəsaitləri - dövriyyə kapitalı kimi** işçilərin fiziki qüvvələrinin qorunub saxlanması və təkrar istehsalına; **əsas kapital kimi isə -** insanların öyrədilməsinə, onların qabiliyyətlərinin formalaşması və inkişafına ayırdı. A.Smit mütəşəkkil əməklə işçilərin layiqli gəlirləri arasındakı obyektiv asılılığı, habelə qiymətlərin artması və inflyasiyanın insanların sağlamlığına göstərdiyi təsiri hərtərəfli təhlil etmişdir. O, həm də adamların sağlamlığını coğrafi mühitlə, torpağın yerləşdiyi yer və onun keyfiyyəti ilə əlaqələndirmişdi (14. səh. 221). O, həmçinin ayrı-ayrı adamlara və ya cəmiyyətə məxsus olan toplanmış ehtiyatların əlverişsiz mövsüm vaxtlarında işçilərin və onların ailələrinin sağlamlığının qorunub saxlanmasının əhəmiyyətini göstərmişdi (14. səh. 311). A.Smit də V.Petti kimi hesab edirdi ki, millətin sərvətinin yaranmasında işçi və onun formalaşması üçün xeyli vəsait tələb olunur və bu **vəsaitlər bilavasitə mənfəətdən ödənilməlidir (14. səh. 208).** İ.B.Sey də **"sərvət"** anlayışına təkcə maddi dəyərləri deyil, həm də bütün təbii sərvətləri və ya pula və qızıla dəyişdirilən qazanılmış talantı da daxil edirdi. İ.B.Sey belə bir dəqiqləşdirmə aparmışdır ki, işçinin bacarığı onun təliminin nəticələrindən asılıdır və bu avans edildiyi halda mümkündür (15. səh. 81). **"İş qüvvəsi" kateqoriyasının kəşfi** isə klassik ingilis siyasi iqtisadın nümayəndəsi David Rikardoya məxsusdur. **O, iş qüvvəsi dedikdə** - muzdlu işçiləri başa düşürdü. Onun ən böyük xidmətlərindən biri də iş qüvvəsinin təkrar istehsalına bir proses kimi baxmasından ibarətdir. O, iş qüvvəsinin təkrar istehsalı ilə bağlı xərclərin qiymətləndirilməsinə cəhd etmişdir. A.Smit kimi D.Rikardo da işçinin sağlamlığının natural pulla əməyin ödənilməsindən və onun xərclənməsinin birinci və başqa zəruri olan predmetlərə bölünməsindən asılılığını, habelə işçinin sağlamlığının xaricdən gətirilən məhsullardan asılı olduğunu da göstərmişdir (16. səh. 119).

**K.Marksın iqtisadi nəzəriyyəsində də insan amilinin rol və yerinə xeyli yer verilmişdir.** K.Marks göstərir ki, insanın əmək qabiliyyəti başlıca sərvət yığımı kimi çıxış

edir. **Onun fikrincə "iş qüvvəsi" insanın özü deyil, onun məhsuldar qabiliyyətinin məcmusudur** (17. səh. 73). O, klassik siyasi iqtisadın nümayəndələrini tənqid edərək yazırdı ki, onlar iş qüvvəsini faiz gətirən kapitala bənzətmişlər. K.Marks onların mövqeyinin səhv olduğunu aşağıdakı iki halla izah etmişdir. **Birincisi,** işçi bu faizi almaq üçün mütləq işləməlidir; **İkincisi,** o, öz iş qüvvəsini başqasına verməklə onun dəyərini pulla kapitala çevirə bilməz (18. səh. 8). K.Marks müəyyən etmişdir ki, iqtisadi cəhətdən şəxsən müstəqil olan muzdlu işçiyə məxsus olan iş qüvvəsi "əmtəə" formasında çıxış edir, bazarda isə alqı-satqı nəticəsində o "dəyişən kapital" forması alır (19. səh. 428). K.Marks xeyli canlı və əşyalaşmış əmək sərfi nəticəsində işçilərin bacarığının, qabiliyyətinin yığımının da zəruriliyini göstərmişdir. Neoklassiklərin – L.Valros, Con M. Klakrk, A.Marşall. Con Mak–Kullox, F.List, İ.Fişer, və bu kimi başqa nümayəndələri klassik yanaşma ideyasını inkişaf etdirərək, insanlara və onların bacarıqlarına əşya kapitalı kimi baxır və burada onu əsas götürürlər ki, onların hər ikisi eyni qaydada həm mənfəət və həm də faiz gətirirlər. Ancaq bu, istiqamətdən olan tədqiqatlar arasında insan kapitalının təbiəti barədə fikir birliyi olmamışdır. Onların əksəriyyəti insanın özünü və onun bacarığını kapital hesab etmişlər. A.Marşall isə heç zaman insanın özünü kapital hesab etməmişdir. Çünki insan maşın kimi nə satıla və nə də alına bilər. O qeyd edirdi ki, fəhlə öz iş qüvvəsini satır. Ancaq o, özünün müstəqilliyini saxlayır və öz iş qüvvəsindən ayrılmır (20. səh. 218). A.Marşall sağlamlığı və öz növbəsində onu artıran əmək məhsuldarlığı və maddi sərvətin əsası kimi çıxış edən əmək ehtiyatlarını təşkil edən **"əhali qüvvəsini"** ayırır (20. səh. 268). Klassiklər və neoklassiklər əməyi iqtisadi resurs kimi öyrənməklə "insan resursları" kateqoriyasının aşkara çıxarılmasına doğru addım atmışlar. Eyni zamanda həmin məktəbin nümayəndələri insan resurslarına qoyulan vəsaitlərdən əldə edilən gəlirin artmasını vurğulamaqla **"insan kapitalı"** anlayışına gəlib çıxmışlar.

**İnsan kapitalı nəzəriyyəsinin əsasını qoyanlar arasında ilk fərqlənənlər isə** amerikan iqtisadçıları – T.Şuls və Q.Bekker olmuşdur. T.Şuls **"insan kapitalı"** kateqoriyasını çox geniş mənada başa düşürdü. O insan kapitalına yönəldilmiş investisiyalara təkcə orta və ali təhsil müəssisələrindəki təhsilə yönəldilmiş birbaşa xərcləri deyil, həm də evdə öz-özünü hazırlamağa, işdə toplanmış təcrübəyə, habelə səhiyyəyə, təhsilə və elmə ayrılan xərcləri də daxil etmişdir. **T.Şuls insan qabiliyyətlərinin başqa formalarının təzahür etməsinə nisbətən daha çox təhsilə diqqət yetirmiş və buna görə də insan kapitalının forma və mənbələri nöqteyi-nəzərdən onun əlavə olaraq öyrənilməsini tələb edirdi** (21. səh. 48). Q.Bekker isə belə hesab edir ki, istehsal vasitələrinin mülkiyyətçiləri ilə yanaşı yeni mülkiyyətçilər qrupu – insan kapitalının sahibləri – meydana çıxıb inkişaf edir. Onun fikrincə insan kapitalı təkcə maddi əşya fondlarını (aktivlərini) deyil, həm də insanların qabiliyyət və bacarığını özündə əks etdirir. Çünki, insanların bacarıq və qabiliyyətləri də yığılıb ehtiyata çevrilə bilir (22. səh. 5). **Buna görə də insan kapitalı dedikdə - insanlarda toplanmış qabiliyyət, bilik, vərdiş və motivlərin məcmusu başa düşülür (1. səh. 4-5), daha doğrusu insan kapitalı gəlir gətirən insan qabiliyyətinin ölçüsüdür (23. səh. 303).** Fiziki kapital kimi insan kapitalı da yalnız yığılmır, həm də fiziki və mənəvi cəhətdən aşınır. İnsanların bilikləri, vərdişləri, bacarıqları o halda kapitala çevrilir ki, investisiya vasitəsilə yığım qabiliyyətinə malik olsun və yüksək əmək haqqı formasında sahilinə gəlir gətirsin (3. səh. 152). **İnsan kapitalı** prinsipcə yeni sosial-iqtisadi hadisə olub, cəmiyyətin intellektual hissəsinin hakim mövqe tutduğu müasir innovasiya iqtisadiyyatına xas olan iqtisadi həyat fəaliyyəti formasıdır. İnsan kapitalı kateqoriyasının müəyyən edilməsinə bu cür yanaşılması müasir cəmiyyətin inkişafında elm və təhsilin xüsusi rol oynaması ilə müəyyən edilən innovasiya iqtisadiyyatında insanın həyat fəaliyyətinin əks tərəfləri kimi istehsal və istehlak arasındakı qarşılıqlı təsirin yeni formalarının meydana çıxıb inkişaf etməsi ilə şərtlənir.

İnnovasiya iqtisadiyyatında insan kapitalının subyekti əməyin bilavasitə şəxsiləşdirilməsi və intellektual fəaliyyət kimi olmaqdan qalır (6. səh. 36).

**Beləliklə,** bir çox keçmiş sovet və qərb ölkələrinin iqtisadçı alimlərinin fikrincə, insan kapitalının formalaşması insanın məhsuldar qabiliyyətin yaranması prosesindən ibarətdir (2. səh. 303). **Əlbəttə,** məsələyə bu cür yanaşmaq texnokratik xarakter daşıyır və heç şübhəsiz ki, insan kapitalının əsil mahiyyət və məzmununu açmağa imkan vermir (3. səh. 152). **"Xalis iqtisadi"** proseslər haqqında da danışmaq xülyadadır, çünki sosial-iqtisadi tərəqqinin hərəkətverici qüvvələrini təşkil edən həm iqtisadi və həm də sosial amillərin özləri də ictimai sistemlə sıx bağlıdır. Məsələn, P.Xeynenin haqlı olaraq yazdığı kimi: **"İnsanların təhsil, peşə hazırlığı və təcrübələri vasitəsi ilə əldə etdikləri bilik və bacarıqları kapitaldır və o, imkan verir ki, onlar başqa insanlar üçün qiymətli xidmətlər göstərə bilsinlər" (4. səh. 360).**

İnsan kapitalı anlayışının müəyyən edilməsi haqqında mövcud olan başqa fikirlərin də burada nəzərdən keçirilməsi məqsədəuyğun olardı. Məsələn, insan potensialının tədqiqi sahəsində görkəmli mütəxəssis olan F.Machlupun fikrincə, eyni cür insan resurslarına vəsait qoyuluşu hesabına insanların fiziki və zehni qüvvələrinin aparılması nəticəsində daha məhsuldar və təkmilləşdirilmiş olan əməyi qeyri-təkmil əməkdən fərqləndirmək lazımdır. Çünki, **bu təkmilləşdirmənin özü elə insan kapitalı deməkdir** (5. səh. 419). Q.Bekker isə yazır ki, insan kapitalı insanlara investisiya qoyuluşu hesabına formalaşır və bu investisiyaların arasında təhsilə, istehsalatda hazırlamağa, səhiyyəyə, əhali miqrasiyasına, qiymətlərə və gəlirlərə dair informasiyanın axtarışına yönəldilən xərclərin adlarını da çəkmək olar (1. səh. 4-5). **Bizim fikrimizcə,** müasir iqtisadi inkişaf mərhələsində insan kapitalının tədqiqi iqtisadi və sosial hadisələrin qarşılıqlı əlaqəsi halında aparılmalıdır. Çünki müasir iqtisadi inkişafın məqsəd və prioritetlərini özündə əks etdirən iqtisadi təhlilin mühüm sahələrindən biri məhz istehsalla istehlakın qovşağında aşkara çıxır. **İnsan kapitalı prinsip etibarı ilə yeni sosial-iqtisadi hadisə olub, intellektual komponentin hakim olduğu müasir innovasiya iqtisadiyyatına xas olan iqtisadi həyat fəaliyyəti formasıdır. İnsan kapitalı** – kateqoriyasının müəyyən edilməsinə bu cür yanaşmaq müasir cəmiyyətin inkişafında elmin və təhsilin xüsusi rol oynaması ilə müəyyən edilən innovasiya iqtisadiyyatında insanın həyat fəaliyyəti kimi istehsal və istehlak arasındakı qarşılıqlı təsiretmənin yeni formalarının meydana çıxıb inkişaf etməsi ilə şərtlənir. İnnovasiya iqtisadiyyatında insan kapitalı subyekti bilavasitə əməyin şəxsləndirilməsi və intellektual fəaliyyət kimi olmaqdan qalır. İnsan kapitalı müasir postindustrial cəmiyyətin əsas iqtisadi münasibətini təşkil edir (3. səh. 152).

Bir çox iqtisadçılar insan kapitalını müəyyənləşdirərkən onun formalaşması prosesinə fiziki və ya maliyyə kapitalındakına bənzər yığımı da daxil edir və ona bir sıra mühüm xüsusiyyətlərə malik olan kapital forması kimi baxaraq gələcəkdə əlavə gəlir əldə etmək məqsədi ilə cari istehlakdan ona vəsait ayrılması tələbini irəli sürürlər (16. səh. 368). Burada onu da nəzərə almaq lazımdır ki: **Əvvəla**, insan kapitalı onun daşıyıcısı olan şəxsdən ayrılıqda mövcud deyildir və müxtəlif material-əşya və maliyyə aktivlərindən (avadanlıq, daşınmaz əmlak, qiymətli kağızlar) fərqli olaraq müasir cəmiyyətdə insanlar alqı-satqı obyekti ola bilməzlər. Bazarda insan kapitalına yalnız "icarə" üçün qiymət müəyyənləşdirilir. Çünki onun aktivi üçün qiymət mövcud deyildir. Buna görə də insan kapitalı son dərəcədə ən az dərəcədə satıla bilmək imkanına malikdir; **İkincisi**, insan kapitalı üçün çox uzunmüddətə investisiya qoyuluşu xarakterikdir. Məsələn, əgər fiziki kapital üçün bu müddət təqribən iki il təşkil edirsə, insan kapitalı üçün 15-20 il və daha çox vaxt müəyyənləşdirilir; **Üçüncüsü**, yığım səviyyəsindən asılı olaraq gəlirin ləng azaldığı fiziki kapitala qoyulan investisiyalara nisbətən insan kapitalına qoyulan investisiyalardan əldə edilən gəlirlər əvvəlcə, yəni insanlar üçün

müəyyən edilmiş əmək qabiliyyəti yaşının yuxarı həddinədək çoxalır, həmin həddən sonra isə kəskin surətdə azalır. İnsan kapitalından əldə olunan gəlir pul və qeyri-pul formasında ola bilər. Buna görə də insan kapitalına investisiya qoyuluşunda istehlak aspekti, istehsal aspektindən heç də az əhəmiyyət kəsb etmir; **Dördüncüsü**; fiziki kapitala nisbətən, insan kapitalına investisiya qoyuluşu riskinin səviyyəsi xeyli yüksəkdir. Bu, əsas etibarı ilə insanların azad surətdə bir yerdən başqa yerə köçməsinin təşkili və ona nəzarətlə bağlı xərclərin çoxluğu, kreditlərin qaytarılması vaxtının uzunluğu, əmək bazarında vəziyyətin dəyişilməsi, habelə riskin sığorta olunması ilə bağlı mexanizmlərin olmaması ilə əlaqədardır; **Beşincisi**, alıcı insan kapitalı xidmətlərindən istifadə hüququ əldə etdikdən sonra, mövcud qaydalara əməl etməyə borclu olaraq azad şəxsiyyətlə əlaqəyə girir ki, bu da onu əmək bazarına gətirib çıxarır. Bu resursun təbii resurslardan, insan resurslarından və adi kapitaldan fərqi ondan ibarətdir ki, ona həmişə investisiya qoyulması zərurəti var və ondan əldə edilən gəlir həmin investisiya qoyuluşundan xeyli vaxt keçdikdən sonra baş verir. Təcrübə göstərir ki, yüksək texnologiyaya malik olan sahələrdə belə insan kapitalının səviyyəsi aşağı olduqda gəlir əldə etmək mümkün olmur. Bu isə belə bir qənaətə gəlməyə imkan verir ki, **kapitalverimliyi baxımından ən perspektivli olan**ı insan kapitalına uzunmüddətli investisiya qoyuluşundan ibarətdir.

**Beləliklə,** yuxarıda deyilən fikirləri ümumiləşdirsək, insan kapitalı anlayışının müəyyən edilməsi sahəsində mövcud olan yanaşmaları şərti olaraq üç qrupa bölmək olar: **Birinci qrup yanaşmanın əsasını** insan kapitalına istehsal və xidmətlərin istehsalı prosesində tətbiq edilən insanların malik olduğu qabiliyyət və keyfiyyət ehtiyatlarının məcmusu kimi baxılması təşkil edir (7. səh. 13-24). **İkinci qrup yanaşmaya** bu anlayışa **"investisiyalaşma"** nöqteyi-nəzərindən, yəni qoyulan investisiyanın nəticəsi olaraq insanların müxtəlif formalarda fəallığının artması, daha doğrusu, onların yaradıcılıq bacarığı, sahibkarlıq və idarəetmə qabiliyyətlərinin də məcmusu kimi baxılması daxildir (8. səh. 115-116).

**Üçüncü qrup yanaşmaya** isə əvvəlki iki yanaşmanın məcmusu halında baxılması aiddir. **Sonuncu, daha optimal variant** olub insan kapitalının əsil mahiyyətini açmağa imkan verir. Bu halda **insan kapitalı dedikdə – əsas əhali kütləsinin mentaliteti və mədəniyyəti, peşəkarlıq və sahibkarlıq qabiliyyəti, menecmentlik səviyyəsi, sağlamlıq (səhiyyə sistemi daxil edilməklə) və əmək tətbiqinin sərbəstlik dərəcəsi və sair bu kimi halların məcmusu başa düşülür. Bir sözlə,** insan kapitalına öz qabiliyyətlərini göstərə bilmək üçün insanlarla və onların malik olduğu qabiliyyət və bacarıqları ilə bağlı olan hər nə varsa hamısı daxildir və onun əsasını xalqın dərin mədəniyyəti təşkil edir (9. səh. 36). Belə olan halda əksəriyyət müəlliflərin də haqlı olaraq düşündükləri kimi, **insan kapitalına təkcə fərdi (şəxsi) və onun ünsürləri səviyyəsində deyil, həm də iqtisadi subyektlər səviyyəsində yanaşılmalıdır. Başqa sözlə desək, insan kapitalına həm mikrosəviyyədə** (fərd, ailə, firma), **həm merosəviyyədə** (region və iri korporasiyalar), **həm makrosəviyyədə** (milli iqtisadiyyat – məcmu insan kapitalı) və **həm də meqasəviyyədə** (dövlətlər birliyi və dünyanın regionları) səviyyədə baxmaq olar: Bu isə o deməkdir ki, **insan kapitalı müstəqil zəruri resursdan və milli sərvətin mühüm ünsüründən ibarətdir.**

**İnsan kapitalını özündə əks etdirən insan potensialı isə hər bir səviyyədə şəxsiyyətin və insanların koalisiyasının ayrı-ayrı tərəflərini iqtisadi cəhətdən səciyyələndirən və nisbətən** müstəqil olan müxtəlif ünsürlərə bölünür. **Terminoloji** baxımdan bu ünsürlər **fondlar** (çünki onlar müəyyən ehtiyatlar yaradır) və ya **aktivlər** (əgər onlar fəal surətdə fəaliyyət göstərir və gəlirlər əmələ gətirərlərsə) adlanırlar. **Bu fondlara** (aktivlərə) bir qayda olaraq aşağıdakılar daxil edilir: **intellektual kapital** (təhsil, elm, mədəniyyət və informasiya fondları daxil edilməklə); **sağlamlıq fondu** (ictimai sağlamlıq fondlarını və səviyyə sistemi fondları daxil edilməklə); **əhalinin mobillik fondu;**

**istehsalatda kadr hazırlığı fondu** (ixtisası, vərdişləri və istehsalat təcrübəsini birləşdirən); **sahibkarlıq fondu** və sair aktivlər:

**İntellektual kapital dedikdə -** insanların təhsil və elmi-informasiya xarakteristikasının məcmusu başa düşülür (10. səh. 36; 18. səh. 169-170, 174, 3, səh. 152). İntellektual kapitalın tətbiqi müvafiq investisiyalardan gələn gəlirlərin artmasına və əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olur. Bu da tarixi həqiqətdir ki yeni texnologiyaya əsaslanan iqtisadiyyat yüksək intellektual səviyyəsi olan insan kapitalı tələb edir, çünki aşağı intellektual səviyyəyə malik olan insan kapitalının tətbiq edildiyi yüksək texnologiyalı sahələrinin özləri belə lazımı səmərə vermir. Bir çox inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, həmin ölkələrin nisbətən sürətlə inkişaf etmələrinə səbəb həmin ölkələrdə insan kapitalının formalaşmasının əsasını bu ölkələrin əhalisinin əksəriyyətinin tarixən yüksək mədəni səviyyəyə malik olmaları təşkil edir. **Sağlamlıq fondu** dedikdə isə əksəriyyət müəlliflər tərəfindən şəxsi kapitalın bir ünsürü olaraq ayrıca götürülmüş adamın sağlamlığı başa düşülür (11. səh. 169-170, 174). Bu kapitalın bir hissəsi mirasdan, digər bir hissəsi isə insan və cəmiyyətin xərclərinin nəticəsi kimi yaranmış nemətlərdən ibarətdir. **Bu anlayışın iqtisadi modeli olduqca sadədir: insan nə qədər sağlam olsa, onun fəaliyyətdə olması müddəti də o qədər çox, əmək qabiliyyəti və məhsuldarlığı yüksək, başqa aktivlərin istifadəsi isə insanın özü işlədiyi firma və bütünlükdə milli iqtisadiyyat üçünsə daha səmərəli olur. Bizim fikrimizcə,** sağlamlıq fondu anlayışına, insanın sağlamlığı ilə yanaşı ictimai sağlamlıq anlayışını da daxil etmək lazımdır. Çünki fərdin sağlamlığı sosial-bioloji orqanizm kimi əhalinin sağlamlığından və mürəkkəb sosial orqanizm kimi cəmiyyətin sağlamlığından (ictimai sağlamlıq) fərqlənir.

**İctimai sağlamlıq dedikdə -** insanların birliyini özündə əks etdirən cəmiyyətin bioloji və sosial funksiyalarının müxtəlif səviyyədə yerinə yetirilməsi ilə xarakterizə edilən vəziyyəti başa düşülür (12. səh. 125-139). **İctimai sağlamlıq** sosial orqanizm kimi bütünlükdə cəmiyyətin yaşamaq qabiliyyətini və dayanıqlı inkişaf imkanlarını müəyyən edir. Əhalinin **mobillik (miqrasiya) fondu dedikdə -** xərc və pul vəsaitləri başa düşülür. Bu fond insan kapitalının tətbiq edilməsinin səmərəliliyinin yüksəldilməsinə köməklik edir. **Başqa sözlə desək -** işçilərin əmək potensialının daha optimal surətdə reallaşdırılmasına imkan verən ərazilərdə və sahələrdə yerləşdirmək yolu ilə gəlirlərin çoxalmasına şərait yaradır. **İstehsalatda kadr hazırlığı fondu** (xüsusi insan kapitalı) isə məqsədəuyğun şəkildə istifadə edildikdə özündə bütün iqtisadi resursların məhsuldarlığını artırmağa və gəlir gətirmək qabiliyyətinə malik olan xüsusi investisiyalar nəticəsində formalaşdırılmış ixtisas və istehsalat təcrübəsi ehtiyatlarını əks etdirir. Mövcud ədəbiyyatlarda qeyd edilən bu anlayışa daha çox peşə-ixtisas potensialı uyğun gəlir. Nəzərə alsaq ki, sahibkarlıq qabiliyyəti də tam əsasda insan kapitalının aktivlərindən biridir, onda sahibkarlıq fonduna da insan kapitalının və intellektual potensialın tərkib hissəsi kimi baxmaq lazımdır.

Məlum olduğu kimi, insan kapitalı insanlara və cəmiyyətə qoyulan investisiyalar hesabına əldə edilir və çoxaldılar. Buna görə də investisiyalar insanların məhsuldarlıq qabiliyyətinin və keyfiyyətinin təkmilləşdirilməsinə yönəldilir və strategiya xarakteri daşıyır. İnsan kapitalına yönəldilən investisiyalar həm də milli iqtisadiyyatın inkişafını uzun müddət əvvəlcədən müəyyənləşdirməyə imkan verir. Hal-hazırda inkişaf etmiş ölkələrdə insanın inkişafına yönəldilmiş, çox şaxəli müstəqil investisiya dairəsi mövcuddur və iqtisadi inkişaf prosesində insan kapitalının rolu durmadan artmaqdadır. Hazırda bir çox inkişaf etmiş ölkələrdə insana qoyulan investisiyaların məbləği fiziki kapitala yönəldilən vəsaitlərdən dəfələrlə çoxdur. İnsan kapitalını təbii resurslardan, və adi kapitaldan fərqləndirən cəhət isə ondan ibarətdir ki, ona daim yüksək səviyyədə investisiya qoyuluşu tələb olunur və ondan qazanılan gəlir investisiya qoyulduqdan xeyli vaxt keçdikdən sonra əldə olunur. Ancaq buna

baxmayaraq kapitalverimi baxımından insan kapitalına uzunmüddətli investisiya qoyuluşu ən perspektivli hal hesab edilir. Burada onu da qeyd etmək lazımdır ki, keçən əsrin 60-cı illərinin əvvəlindən etibarən **təhsil əmək məhsuldarlığının yüksəldilməsinin** mühüm mənbəyi və iqtisadi artımın əsas ölçüsü kimi qəbul edilməyə başlanmışdır. Ayrılıqda götürüldükdə hər bir insanın əməyini daha məhsuldar edən də məhz elə **təhsildir.** Çünki işçilər nə qədər yüksək biliyə malik olsalar, bir o qədər yüksək əmək məhsuldarlığına nail ola bilərlər. Bundan əlavə **təhsil səviyyəsinin yüksək olması** işçidə sahibkarlıq vərdişlərinin inkişafına, onun daha bacarıqlı təşkilatçı olmasına, daxil olan informasiyalara daha tənqidi yanaşıb ona daha düzgün qiymət vermək, mövcud resursları yaranmış şəraitə uyğun olaraq daha düzgün bölüşdürmək və istifadə etmək qabiliyyətinə yiyələnmək imkanı verir. Bu da təkzib olunmaz bir həqiqətdir ki, daha yüksək təhsil hazırlığına malik olan insanlar elm və texnikada baş verən dəyişikləri daha tez qavraya bilir, bu yenilikləri öz istehsalat sahələrində və istehsal fəaliyyətində hamıdan əvvəl tətbiq etməyə, malik olduqları resurslardan daha yaxşı və səmərəli istifadə etmək imkanlarına malik olurlar. Bütün bunlar isə son nəticədə milli iqtisadiyyatın yaranmasına və iqtisadi artımın yüksəlməsinə gətirib çıxarır. Təhsil işçidə yenilik bacarığı yaradaraq onu daha təşəbbüskar edir və ictimai əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur. Buradan belə bir həqiqət ortaya çıxır ki, təhsilin iqtisadi artıma təsiri **üç əsas istiqamətlə baş verir: birincisi,** o, iş qüvvəsini toplanmış olan biliklərlə; **ikincisi,** insanlar tərəfindən yeni biliklərin əldə edilməsinə və **nəhayət üçüncüsü,** yeni biliklərin istehsalı prosesinə şərait yaradır.

**Bütün bunlar onu deməyə əsas verir ki, təhsil – iqtisadi artım potensialının amilidir.** Təhsil o vaxt iqtisadi artımın həqiqi mənbəyi olur ki, onun istifadə oluna bilməsi üçün kifayət qədər iş yerləri mövcud olsun və məcmu iş qüvvəsinin **quruluş xarakteristikası ilə iqtisadiyyatın obyektiv tələbatı arasında kəmiyyət və keyfiyyət uyğunluğuna əməl olunsun.** Çünki ictimai təkrar istehsal prosesində cəmiyyətin maddi-əşya və qeyri-əşya (qeyri-maddi) ünsürləri arasında yaranan uyğunsuzluq ona gətirib çıxarır ki, əmək məhsuldarlığının yüksəldilməsi üçün mövcud olan imkanlar tamamilə reallaşmamış qalır.

Məlum olduğu kimi, iqtisadi ədəbiyyatlarda insanın məhsuldarlıq qabiliyyətini, kollektivin və bütünlükdə cəmiyyətin **"İnsan kapitalını"** qiymətləndirmək üçün insan kapitalının dəyər ifadəsində həcminin müəyyən edilməsinin müxtəlif metodları mövcuddur. Ən çox tanınmış metod isə gələcək gəlirlərin kapitallaşdırılması prinsipinə əsaslanır (13. səh. 380). Bu halda hər bir aktivin dəyərcə həcmi onun istifadə edilməsinin iqtisadi səmərəliliyi ilə müəyyən edilir. Gələcək gəlirlərin uçota alınan məbləğini isə tətbiq edilən kapitalın həcmi təşkil edir. Təsbit olunmuş yaşda **hər bir işçinin insan kapitalının dəyəri yaşından asılı olaraq insanın əmək qabiliyyətinin qurtarması, ixtisaslı əməyə düşən əmək haqqının ümumi məbləği və faiz dərəcəsi ilə müəyyən olunur.** Hal-hazırda BMT və Dünya Bankı tərəfindən istifadə olunan **"insan inkişafı indeksi" də** mühüm əhəmiyyət kəsb edir. Bu indeks əhalinin **rifahı** və **yaşayış keyfiyyətinin** həcmini özündə əks etdirir və insan kapitalı və əhalinin həyat səviyyəsinin keyfiyyətinin ən inandırıcı üç ölçüsünün orta hesab göstəricisi kimi aşağıdakı düsturla hesablanır:

$$HDİ = (İ_1+İ_2+İ_3) \cdot 3$$

Burada: $İ_1$ – doğulan vaxt insanın gözlənən orta yaş indeksi; $İ_2$ - əhalinin təhsil səviyyəsi indeksi (yaşa dolmuş əhalinin savadlılıq indeksi və ibtidai, orta və ali təhsil alanların xüsusi çəkisinin məcmusu kimi hesablanan birləşdirilmiş göstərici); $İ_3$ – alıcılıq qabiliyyətinin ABŞ dollarına uyğun surətdə hesablanmaq üzrə əhalinin hər nəfərinə düşən real ÜDM indeksi. Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, uzun müddət ərzində ÜDM-un artımı əsas etibarı ilə elmi-texniki tərəqqi, insan kapitalı və onların birlikdə təsiri nəticəsində baş verir. Müasir şəraitdə Elmi Texniki Tərəqqinin (ETT) parametri insan kapitalı

parametrinin funksiyasından ibarətdir. Burada onu da qeyd etmək lazımdır ki, müasir cəmiyyət prinsipcə yeni tip sosial-iqtisadi inkişafa keçidlə səciyyələnir və onun əsas amillərini **bilik, təhsil, insan həyatının tamlığı** təşkil edir. Ölkəmiz indi **insan kapitalının** istifadəsinin icrasının elə fazasına qədəm qoymuşdur ki, bu zaman ictimai sərvətin çoxalması get-gedə daha çox insandan, onun biliyindən, əmək vərdişlərindən, peşəkarlığından asılıdır.

**"İnsan kapitalının"** həcmi, onun potensial gəlir gətirmək qabiliyyəti ilə qiymətləndirilir. İnsan kapitalına qoyulan investisiya fiziki kapitala qoyulan investisiya ilə eynilik təşkil edir. Hər iki kapital yığımı növü iqtisadi resurslar cəlb edilmək yolu ilə həyata keçirilir. **Bacarıq və vərdişlər, peşə biliyi, təcrübə bütün bunların hamısı – insan kapitalını təşkil edir və insana investisiya qoyuluşu yolu ilə artırılır.** İnvestisiya qoyuluşu hər şeydən əvvəl insanın məhsuldarlıq qabiliyyətinin təkmilləşdirilməsinə aiddir və o, strateji xarakter daşıyır. Çünki, məhz investisiyalar iqtisadiyyatın inkişafını müəyyən edir. Q.Bekkerin fikrincə, müasir dövlətin iqtisadiyyatının səmərəliliyi əhəmiyyətli dərəcədə işçilərin ümumtəhsil biliyi almalarına və onların peşə hazırlığına ayırdığı vəsaitin məbləğindən asılıdır (8, səh. 4-5). Təhsil səviyyəsinin və peşə hazırlığının yüksəldilməsi isə insan kapitalına əlavə vəsait qoyuluşunun, daha doğrusu investisiya qoyuluşunun artırılmasını tələb edir. Bununla əlaqədar olaraq həmin investisiyaların mənbəyi və onların səmərəliliyi ilə bağlı məsələlər meydana çıxır. Nəzərə alsaq ki, insan kapitalı təkcə şəxsi mənafe üçün deyil, ictimai maraqlar üçün istifadə edilir, onda bu sahəyə investisiyalar iki mənbədən daxil olmalıdır: **Birincisi** - xüsusi qoyuluşlardan, yəni vətəndaşların şəxsi vəsaitlərindən, qeyri-dövlət müəssisələrinin, təşkilat və idarələrin vəsaitlərindən; **İkincisi** - dövlət investisiyalarından.

**İnzibati amillik** dövründə insan kapitalına investisiya qoyuluşu plana uyğun qaydada mərkəzləşdirilmiş surətdə dövlət vəsaiti hesabına həyata keçirilirdi. Cəmiyyətin hər bir üzvü pulsuz təhsil, tibbi xidmət almaq hüququna malik idi və bu zaman insan kapitalına şəxsi (xüsusi) investisiya qoyuluşu çox cüzi həcmdə idi. **Müasir bazar iqtisadiyyatı dövründə isə** insan kapitalına investisiya qoyuluşunun əlavə mənbələrinin axtarılması üçün yeni şərait yaranmışdır. İndi artıq insan kapitalının lazımi səviyyədə təkrar istehsalının həyata keçirilməsi üçün dövlət maliyyələşdirilməsi kifayət etmir. Buna görə də bu prosesin xüsusi (şəxsi) maliyyələşdirilməsinə tələbat yaranmışdır. Digər bir tərəfdən isə bazar iqtisadiyyatı şəraitində gəlirlərin və istehlakın səviyyəsindəki qeyri-bərabərliyin mövcud olması üzündən fərdlərin qabiliyyət və bacarıq dərəcəsindən asılı olaraq insan kapitalı qoyuluşu dairəsinin xüsusi investisiyalaşdırılmasında çətinliklər yaranır. Burada çıxış prinsipi ondan ibarətdir ki, resursların və imkanların məhdud olduğu dünyada insanlar öz seçimini edərkən minimum xərclə maksimum qazanc əldə etməyə cəhd edirlər. Hal-hazırda sağlamlıq kimi mühüm amilin insan kapitalına təsirinin öyrənilməsinə də böyük ehtiyac vardır. Çünki əhalinin sağlamlığı sosial-iqtisadi inkişafın əsas amillərindən biridir.

**Səhiyyəyə yönəldilən xərclər də** (tibbi xidmətlər, xəstəliklərin profilaktikası, pəhriz yeməkləri, mənzil şəraitinin yaxşılaşdırılması) böyük əhəmiyyətə malik olub insanların işləmək qabiliyyətinin və sağlamlığının artmasına, həmçinin də onların ömür müddətinin uzanmasına səbəb olur. Əhalinin sağlamlığı həm də sosial-iqtisadi inkişafın mühüm amillərindən birini təşkil edir. Sağlam insanlar təhsil almağa cəhd göstərirlər, məhsuldar işləyir və öz həyat şəraitlərini və güzəranlarını yaxşılaşdırmağa çalışırlar. Ancaq nədənsə hələ də səhiyyə xərcləri qeyri-məhsuldar xərclərə aid edilir və məcburi xərclər hesab olunur. Halbuki, **səhiyyə və təhsilə yönəldilən investisiyalara ölkənin uzun müddətli inkişafına yönəldilmiş insan kapitalının saxlaması və inkişafı baxımından sosialyönümlü istiqamət kimi yanaşılmalıdır.** Nəzərə almaq lazımdır ki, sənaye cəhətdən inkişaf etmiş ölkələrdə səhiyyə sahəsində yeridilən cəmiyyətin sosial yönümlü siyasəti tibbin təmin edilməsinin

dövlət maliyyə sistemi kimi yaradılmışdır. Təsadüfi deyildir, keçən əsrin ortalarından başlayaraq dünyada tibbin hər bir insanın və cəmiyyətin həyatında oynadığı rolun qiymətləndirilməsində əhəmiyyətli dəyişikliklər baş vermişdir. 1948-ci ildə DST-tı (Dünya Sağlamlıq Təşkilatı) səhiyyəni **"təkcə xəstəliyin və ya fiziki qüsurun olmaması kimi deyil, tam fiziki, psixi və sosial rifahın olması kimi" müəyyənləşdirilmişdir. Bununla da sağlamlığa və xəstəliyə təkcə tibbi problem kimi deyil, həm də ümumi sosial problem kimi yanaşmanın əsası qoyuldu.** Sağlamlıq göstəricisinə insanların fiziki və psixi vəziyyətinə siyasətçilər artıq bütünlükdə cəmiyyətin və onun ayrı-ayrı təbəqələrinin rifah və xoşbəxtlik səviyyəsi kimi baxmağa başlamışlar. Buna görə də səhiyyənin inkişafına daim xüsusi qayğı göstərilməlidir. Elə bu səbəbdəndir ki, hal-hazırda dünyada **"sağlamlıq zonası"** konsepsiyası mövcuddur və həmin konsepsiyaya əsasən sağlamlığın 4 aparıcı determinantı müəyyənləşdirilmişdir. Bunlara: **insanın bioloji təbiəti; onu əhatə edən mühit; fərdi davranış** və **tibbi köməyin təşkili** daxildir. Bunların məcmusu **"sağlamlıq zonasını"** yaradır. **"Sağlamlıq zonası" konsepsiyanın əsasına belə bir humanist müddəa qoyulmuşdur ki, insanların həyat tərzi onların sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş qlobal səylərin mühüm tərkib hissəsi olan sosial siyasətin obyektinə çevrilməsi və hər bir dövlətin həyata keçirdiyi siyasətin əsas istiqamətlərindən birini təşkil etməlidir.** Sağlamlıq hər birimiz üçün təkcə fiziki və ruhi dəyərlər, insanın qiyməti bilinməyən sərvəti deyil, həm də yüksək mənəvi-etik dəyər, xoşbəxtlik zəminidir. Başqa sözlə desək, sağlamlıq ayrılıqda götürülmüş hər bir adam üçün və bütünlükdə xalq üçün xoşbəxt olmağın başlıca şərtlərindən biridir. İnkişaf etmiş ölkələrdə əhalinin sağlamlığının möhkəmləndirilməsi və ömür müddətinin uzadılması sahəsində əldə edilmiş nailiyyətlər başlıca olaraq əhalinin sağlamlığına dair məlumatların toplanması, səhiyyə sisteminin fəaliyyəti və **"Hamı üçün sağlamlıq" (və ya "sağlam xalq")** Dövlət Proqramlarının yerinə yetirilməsinə yönəldilmiş dövlət siyasətinin nəticəsidir. Onu da qeyd etmək lazımdır ki; Fərdi sağlamlıqla ictimai sağlamlığı fərqləndirmək lazımdır.

**Fərdi sağlamlıq** – hər kəsin özünü necə hiss etməsi, xəstəliyinin olması və ya olmaması, əmək qabiliyyətliliyi, fiziki vəziyyəti və inkişafı, şəxsi həyat hissi, həyat sevinci, işləmək qabiliyyəti ilə müəyyən edilir. **İctimai sağlamlıq dedikdə -** elə vəziyyət, elə cəmiyyət başa düşülür ki, burada insanlar üçün fəal, məhsuldar həyat tərzi təmin edilmiş olsun; sıxıntılı xəstəliklər, fiziki və psixi pozğunluqlar halları mövcud olmasın. Bütün bunlar insan kapitalının keyfiyyəti deməkdir. Burada ən önəmlisi **"həyat tərzi"** və **"sağlam həyat tərzi"** anlayışlarıdır. Bu anlayışlar **bilavasitə cəmiyyətə, ictimai münasibətlərə** aid olub sağlamlığı təmin edən meyardır. **İctimai sağlamlıq** bilavasitə sərvət, cəmiyyətin potensialı və həyat tərzi ilə qovuşduğundan **"ictimai sağlamlıq potensialı", "ictimai sağlamlıq indeksi", "sağlam həyat tərzi indeksi"** kimi anlayışlardan istifadə etməyə imkan verir. Bu **indeksləri sağlam və qeyri-sağlam həyat** tərzi amillərinin xüsusi çəkiləri arasındakı nisbətlik və yaxud da sağlam həyat tərzi yaşayanların xüsusi çəkisi kimi təqdim etmək olar.

**Sağlamlıq potensialı** ümumiyyətlə götürüldükdə çox mühüm göstərici olub bütünlükdə cəmiyyətin sağlamlığını səciyyələndirir. Ancaq yaranmış müasir vəziyyət onun məzmununun bir qədər dəqiqləşdirilməsini tələb edir. **Bizim fikrimizcə,** son vaxtlar sosial-demoqrafik və tibbi ədəbiyyatlarda göstərildiyi kimi **sağlamlıq potensialı** dedikdə - **insanların fəal həyat tərzi ilə yaradılan** daim dəyişməkdə olan sosial-iqtisadi həyat şəraitinə uyğunlaşan, onların sağlamlığının kəmiyyət və keyfiyyəti ilə təmin olunan cəmiyyət tərəfindən toplanmış qabiliyyətləri və onların **ehtiyatları başa düşülür. Biz burada daim dəyişməkdə olan sosial-iqtisadi şəraitə uyğunlaşan insan qabiliyyətinə istinad edirik,** çünki hazırda dünya əhalisinin xeyli bir qismi kasıbçılıq həddindən aşağı səviyyədə yaşayırlar. Bu, bir mənfi hal kimi əhalinin sağlamlığına təsir göstərir və əhali arasında

xəstəliklərin artmasına gətirib çıxarır, xəstə insanlar isə məhsuldar işləmək qabiliyyətində və dünyaya sağlam nəsil gətirmək iqtidarında olmurlar. Bizim fikrimizcə, **yoxsulluq** – xəstələnmənin və insultdan, ürək-damar xəstəliklərindən, asma, xərçəng xəstəliklərindən ölmələrin ən mühüm amillərindən birini təşkil edir. Yoxsulluq – sağlamlıq üçün çoxlu özünəməxsus risk mənbəyini təşkil edir. Daha doğrusu – aşağı təhsil səviyyəsinin, pis mənzil şəraitinin, pis qidalanmanın, depressiyanın, siqaret çəkməyin, alkoqol və narkotik qəbul etməyin, erkən boyluluğun, yarımçıq ailənin, ailənin tullanmasının, ruh düşkünlüyünün, doğumdan qabaq qulluğun olmamasının, yeni doğulanların az çəkiyə malik olmasının, ailədə və ailədən kənar zorlamanın və sair mənbəni təşkil edir. **Bütün bu amillər isə öz növbəsində insan kapitalının keyfiyyətinə mənfi təsir göstərir.** Buna görə də dövlətin bütünlükdə yeritdiyi düzgün sosial siyasəti, o cümlədən də səhiyyə sahəsindəki siyasəti insanların sağlam olmasına şərait yaradır, sağlamlıq isə əhalinin rifahının başlıca ünsürünü təşkil edir və iqtisadi artımın yüksəlməsinə gətirib çıxarır. **Burada onu da qeyd etmək lazımdır ki, insanın sağlamlığı həm xarici amillərdən, həm də insanın özünün sağlamlığını qoruyub saxlamasından çox asılıdır.**

**Nəticə**

Hər bir dövlət, o cümlədən də Azərbaycan dövləti bu deyilənləri nəzərə alıb ölkənin bütün əhalisinin və onun əksəriyyətini təşkil edən əmək qabiliyyəti yaşda olan əhalisi üçün layiqli həyat şəraiti yaratmağa borcludur və onun əsas vəzifələrindən biridir. Bu səbəbdən də hələ 2007-ci il Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən **"Azərbaycan Respublikasında səhiyyə sisteminin islahatları konsepsiyası"** işlənib hazırlanmış və həyata keçirilməyə başlanmışdır. Burada nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi ölkə əhalisinin sağlamlığının yaxşılaşdırılmasına kömək göstərəcəkdir. Bütün bu yuxarıda deyilənləri yekunlaşdırsaq, yəqinliklə belə demək doğru olar ki, hər bir ölkədə və onun ayrı-ayrı regionlarında **insan kapitalının keyfiyyəti** hər şeydən əvvəl burada mövcud olan təhsilin keyfiyyətindən və əhalinin sağlamlığından asılıdır və bir çox kompleks xarakter daşıyan göstəricilərlə şərtlənir. Bu göstəricilərə ayrı-ayrı regionlar üçün səciyyəvi olan iqlim şəraitini, ekoloji vəziyyəti, regionların demoqrafik, sosial, iqtisadi və tibbi inkişaf səviyyəsini aid etmək olar. Buna görə də ayrı-ayrı ölkələrin və regionların **insan kapitalının qiymətləndirilməsi** bu göstəricilərin bir-birinə təsirinin və qarşılıqlı asılılıqlarının kompleks halında təhlil edilib öyrənilməsinə əsaslanmalıdır.

**Ədəbiyyat**

1. Беккер Г. Не желайте денег на людей. Бизнес уик. 1996, № 6, с. 4-5.
2. Фишер С., Дорнбуси Р., Шмалензи Р. Экономика, пер. с анг. 2-е изд. М. «Дело», 1993,
3. Ситкина Л.Г. Человеческий капитал в инновационной экономике. Спб: СПбГИЭА. 2000.
4. Хейне П. Экономический образ мышления. М. «Дело». 1992. с. 360.
5. Мажщлуп Ф. The Economics of Information and Human Capital. Princeton, 1984. сящ. 419.
6. Курганский С.А. Человеческий капитал: методологический анализ формирования и оценка. СпбГУЭФ – СПб, 1999, сящ.36
7. Критский С.А. Предпринимательские способности – актив человеческого капитала. Известия СПбГУЭФ. 1999, №1, с. 13-24.
8. Беккер Г. Человеческий капитал (глава из книги) США: Экономика, политика, идеология – 1993, № 11. сящ. 115-116
9. Курганский С.А. Человеческий капитал: методологический анализ формирования и оценка. Автореф. Дис. докт. Экон. Наук. СПбГУЭФ – СПб., 1999, с. 36.
10. Курганский С.А. Человеческий капитал: методологически анализ формирования и оценка. СпбГУЭФ – СПб, 1999, səh.36;
11. Курганский С.А. Человеческий капитал: сущность, структура, оценки – Иркутск: Изд-во ИГЭА, 1999. s. 169-170 və 174
12. Шевченко Ю.П. Концепция качества жизни общества как новая парадигма управления здравоохранения RAEK- 2000, № 4 (2) səh. 125-139.
13. Ядгаров Я.С. История экономических учений. Учб.для вузов. 3-е изд. М. 1999; səh. 380.

14. Смит А. исследование о природе и принципах богатства народов. М.Соцэкиз. 1962. с. 17.
15. 25 Ключевых книг по экономике. А.Бейтон, А.Казояла, К.Долло, А.М.Дре: (Лер. страниц). Челябиник. Изд-во «Урал ЛТД», 1999, с. 81.
16. Риккардо Д. Сочинения. Т. 1. М. Госкомизу. 1955. səh. 119.
17. Marks Karl. Kapital. 1-ci cild. 1969, s. 73.
18. Маркс К., Энгельс Ф. Соц. 2-е изд. Т. 25. с. 8
19. Маркс Карл, Энегельс Ф. Соцю 2-е изд. Т.24, с.428.
20. А.Маршалл. Принципы политической экономии. Т. 1. (пер. С андс). М.Прогресс. 1983.
21. Sehultz T. İnvestment in Human Capital. Economic Growin – an American problem. Euglewood. Cliffs, 1964, p. 48.
22. Калелюшников Р.И., Албекова И.М. и дрг. Человеческий капитал России. Проблемы реабилитации. «Общество и экономика», 1993, №9-10.с.5.
23. Фишер С., Дорнбуси Р., Шталеизи Р. Экономика. Пер. сангил. 2-е изд. М. «Дело», 1993.

***Шахбаз Мурадов***
***д.э.н.,проф. член-корреспондент НАНА***
***Институт Экономики НАНА, заведующая отделом «Демография и проблемы занятости».***
***Ровшан Мурадов***
***д.э.н.,проф.***

***Человеческий капитал и некоторые его научные теориии о концептуальной основе***

***Резюме***

*В статье проанализированы и обобщены теоретические идеи, взгляды и подходы в трудах классиков экономической науки, а также работ отдельных выдающихся экономистов мира относительно человеческого капитала, а также приведены некоторые научные и научные выводы научного чтения. из этого вытекало значение.*

***Ключевые слова:*** *человеческий потенциал, человеческий капитал, интеллектуальный капитал, человеческое измерение, уровень образования, индивидуальное здоровье, общественное здоровье, рабочая сила, индекс человеческого развития, благополучие, качество жизни, образ жизни, бедность, потенциал здоровья.*

***Shahbaz Muradov***
***d.e.,prof. Corresponding member of ANAS***
***ANAS Institute of Economics***
***Head of the "Demography and employment problems" department.***
***Rovshan Muradov***
***d.e.,prof.***

***Human capital and some of its scientific theories and about the conceptual basis***

***Summary***

*In the article, the theoretical ideas, views and approaches in the works of the classics of economic science, as well as the works of individual prominent economists of the world regarding human capital were analyzed and summarized, and some scientific and scientific conclusions of scientific reading importance were drawn from this.*

***Keywords:*** *human potential, human capital, intellectual capital, human dimension, education level, individual health, public health, labor force, human development index, well-being, quality of life, lifestyle, poverty, health potential.*

***Elmi redaktor: i.e.d., dos. Y.Məmmədov***
***Daxil olub: 08.08.2022.***
***Çapa qəbul olunub: 15.08.2022.***